
10 dekabr 2020, Bakı


8 noyabr 2023, Xankəndi

# Zəfər paradlarının Müzəffər Komandanı

**Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ötən illər ərzində Azərbaycanda çox sayda möhtəşəm paradlar keçirib. Üçrəngli, ay-ulduzlu bayrağımızın öncüllüyündə addımlayan igid oğullarımızı, nümayiş etdirilən müasir hərbi texnikalarımızı dəfələrlə fəxrlə seyr etmişik.**

Amma 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında, eləcə də 2023-cü il noyabrın 8-də Qarabağın xanzadə şəhəri Xankəndidə keçirilən Zəfər paradları bir başqa qürur, bir ayrı xoşbəxtlik əhvalı yaratdı hamımızda.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi möhtəşəm qələbələrə həsr olunan bu təntənəli paradlar xalqımızın əzminin, gücünün, yenilməzliyinin şah zirvəsi kimi tariximizə silinməz izlərlə həkk olundu.

## O tarixi günlər yetişdi

Prezident İlham Əliyevin qətiyyətli, uzaqgörən, məqsədyönlü siyasəti, ordumuzdakı ruh yüksəkliyi, torpaqlarımızın bir qarışını belə düşmənə verməyəcək əzmdə olması, igid oğullarımızın daim irəli getməsi Vətən müharibəsində düşmən üzərində qəti qələbəmizi şərtləndirən amillər oldu.

2020-ci il noyabrın 8-də Qarabağın baş tacı Şuşa şəhərinin azad edilməsi və orada Azərbaycan bayrağının dalğalandırılması ilə sentyabrın 27-də çıxdığımız Zəfər yürüşü qələbə ilə başa çatdırıldı. Dünya hərb tarixində bənzərinə rast gəlinməyən şücaətlə Şuşanı azad edən qəhrəman döyüşçülərimiz düşmənin belini qıraraq onu təslim olmağa məcbur etdilər.

Vətən müharibəsinə qədər keçirilən bütün paradlardakı çıxışlarında Ali Baş Komandan İlham Əliyev xüsusi vurğulayırdı ki, gün gələcək, işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Bakıda keçirilən paradımıza gətiriləcək...

Budur, artıq Müzəffər Lider İlham Əliyevin vaxtilə söylədiyi tarixi sözlər gerçəkləşib və müasir azərbaycanlılar həmin xoşbəxt günlərin şahidinə çevrilib.

2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında Azərbaycanın müstəqillik tarixindəki ilk Zəfər paradı keçirildi.

Zəfər paradında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan iştirak etdilər.

İlk olaraq Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı və 44 günlük Vətən müharibəsinin Zəfər Bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət və Zəfər bayraqlarının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin, düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qisminin nümayişi oldu.

Vətən müharibəsində qələbənin əldə edilməsində mühüm rol oynayan PUA-ların, həmçinin "İti qovan"ın ("Orbiter-1KM") paradda nümayişi hər kəsdə yüksək əhvali-ruhiyyə yaratdı. "Su-25" hücum və hava dəstək təyyarələr qrupu səmada Azərbaycanın Dövlət Bayrağının təsvirini yaradaraq, üçrəngli bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Həmin tarixdə Azadlıq meydanına 44 günlük müharibədə düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Qəhrəman oğullarımızın darmadağın etdiyi düşmən texnikalarının nümayişi bir daha dünyaya Azərbaycanın "dəmir yumruğ"unun qarşısında heç bir gücün dayana bilməyəcəyinin mesajını çatdırdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər paradındakı çıxışında vurğuladığı kimi: "Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu, demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq".

## Azərbaycan bayrağı Xankəndidə dalğalandırıldı

2020-ci il noyabrın 8-də Şuşada qazanılan qələbənin qürur hissini düz üç il sonra Xankəndidə keçirilən Zəfər paradında bir daha duyduq.

2023-cü ilin sentyabrında suverenliyimizi bərpa etməyimiz həm də Şuşa Zəfərinin doğurduğu, milli mənafelərimizin təmini ilə bağlı əldə etdiyimiz misilsiz nəticə idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Xankəndidə Azərbaycan bayrağının dalğalandırılması Zəfərimizin üçüncü ildönümünə ən böyük töhfə, Azərbaycan xalqına ən böyük xoşbəxtlik ərmağanı oldu.

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda çıxışı zamanı Prezident İlham Əliyev vurğuladı ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə Azərbaycan bayrağını qaldırmasından böyük xoşbəxtlik ola bilməz: "Həm özüm üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün".

Noyabrın 8-də Xankəndidə Müzəffər Ali Baş Komandanın çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi oldu.

Silahlı Qüvvələrin parad heyətləri Azərbaycan Dövlət Bayrağını və Şuşa şəhərinə sancılan - Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağı altında tribunaya doğru irəlilədilər. Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi.

Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin parad heyətinin keçidi oldu. Əlahiddə Ümumqoşun Ordunun parad heyətləri tribuna önündən mətin addımlarla irəlilədilər...

Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunan hərbi texnikaların kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi. Müsadirə edilmiş hərbi texnikaların və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanan və üzərində "Zəfər" sözü həkk edilən lövhə nümayiş olundu.

2023-cü il noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradın məhz Xankəndidə keçirilməsi ilə bir daha bütün dünyaya "Qarabağ Azərbaycandır!" gerçəkliyinin ismarıcı verildi.

44 günlük Vətən müharibəmizin Zəfər zirvəsini 8 noyabr 2020-ci il, 23 saatlıq antiterror tədbirlərinin parlaq nəticəsini isə 20 sentyabr 2023-cü il tarixində yaşadıq. Şuşa azadlığına qovuşdu, Xankəndidə suverenliyimiz bərpa olundu. Bu tarixi günlər min illər boyu şərəflə xatırlanacaq qəhrəmanlıq salnaməmizə çevrildi.

Necə ki, bunu Xankəndidən Qalib lider İlham Əliyev söylədi: "20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*